AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
RİYAZİYYAT VƏ MEXANİKA İNSTİTUTU

Əlyazması hüququnda

MAHİR MİRZƏXAN OĞLU SƏBZƏLİYEV

SİNQULYAR HƏYƏCANLANMIŞ DİFERENSİAL TƏNLİKLƏR NƏZƏRİYYƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

1211.01-Diferensial tənliklər

Riyaziyyat üzrə elmlər doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

A V T O R E F E R A T I

Bakı – 2013

Dissertasiya işi **Azərbaycan Dövlət Neft Akademiyasının** «Ali riyaziyyat» kafedrasında yerinə yetirilmişdir.

Rəsmi opponentlər:
fizika-riyiziyyat elmləri doktoru, prof. **Əkbər B.Əliyev**
(Azərbaycan Texniki Universiteti);
fizika-riyiziyyat elmləri doktoru, prof. Rusiya Federasiyasının əməkdar elm xadimi **Anatoliy V.Latışev**
(Moskva Vilayət Dövlət Universiteti).
fizika-riyiziyyat elmləri doktoru, prof. **İbrahim M. Nəbiyev**
(Bakı Dövlət Universiteti);

Aparıcı təşkilat:
Azərbaycan Dövlət Pedaqoji Universiteti
«Riyazi analiz» kafedrası.

Dissertasiyanın müdafiəsi 06 dekabr 2013-cü il saat 14^{00}-da Azərbaycan Milli Elmlər Akademiyası Riyaziyyat və Mexanika İnstitutunun nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün D01.111 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyası Riyaziyyat və Mexanika İnstitutunun kitabxanasında tanış olmaq olar.

Ünvan: AZ 1141, Bakı şəhəri, B.Vahabzadə küç.9

Avtoreferat göndərilib 07 oktyabr 2013-cü il

AMEA RMİ-nin D01.111
Dissertasiya Şurasının
elmi katibi **dosent Tamilla Həsənova**

İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

Mövzunun aktuallığı. Bir fiziki xarakteristikalarından digərlərinə keçidləri qeyri-müntəzəm olan bir sıra real hadisələrin öyrənilməsi prosesində sinqulyar həyəcanlanmış diferensial tənliklər üçün sərhəd məsələlərini tədqiq etmək lazım gəlir. Sinqulyar həyəcanlanmış sərhəd məsələləri A.N.Tixonov, L.S.Pontryaqin, N.N.Boqolyubov, Y.A.Mitropolskiy, V.Vazov, A.B.Vasilyeva, K.Fridrixs, M.İ.Vişik, L.A.Lyüsternik, O.A.Oleynik, Y.E.Mişenko, N.X. Rozov, S.A.Lomov, A.M.İlin və başqaları kimi görkəmli riyaziyyatçıların diqqətlərini cəlb etmişdir.

Xüsusi törəməli diferensial tənliklər üçün sinqulyar həyəcanlaşmış diferensial tənliklər nəzəriyəsində mühüm inkişaf M.İ.Vişik və L.A.Lyüsternikin [1] [1], [2] [2] işləri olunmuşdur. Onlar cırlaşmış məsələyə keçdikdə itən sərhəd şərtlərinin bərpa olunması üçün asimptotik ayrılışa sərhəd zolaq tipli funksiyalar daxil etmişlər. Hazırda bu qayda Vişik-Lyüsternik metodu adlanır. A.B.Vasilyeva qeyri-xətti sistem üçün Koşi məsələsini araşdırarkən həllin asimptotikasının qurulmasının elə effektiv metodunu işləmişdir ki, bu üculla başqa bir sıra məsələləri də öyrənmək olar. V.F.Butuzov düyün sərhəd zolaq tipli funksiyalar daxil etməklə, klassik tiplərin hər üçünə aid diferensial tənliklər üçün konkret sərhəd məsələlərini tədqiq etmişdir. Qüvvət sərhəd zolaq tipli funksiya və qalxma metodu S.A.Lomov tərəfindən daxil edilmişdir. A.M.İlin və onun tələbələri tərəfindən bir çox məsələlər asimptotik ayrılışın uzlaşması metodu ilə həll edilmişdir. Onlar tərəfindən həm də baxılan oblastın sərhəddində cırlaşan bir sıra sinqulyar həyacanlanmış tənliklər öyrənilmişdir.

Bu işlərin əksəriyyəti xətti diferensial tənliklərə aiddirlər. Yaxşı məlumdur ki, xətti modellər real prosesləri həmişə adekvat əks etdirmirlər. Ona görə də sinqulyar həyacınlaşmış qeyri-xətti diferensial tənliklər üçün sərhəd məsələlərinin tədqiqi mühüm nəzəri və praktiki əhəmiyyətə malikdir.

M.İ.Vişik və L.A.Lyüsternik, Su-Yuy-Çen, V.A.Trenoqin, V.Y.Lunin, V.F.Butuzov, İ.V.Denisov, S.V.Zaxarov, M.M.Xapayev,

---

[1] Вишик М.И., Люстерник Л.А. Регулярное вырождение и пограничный слой для линейных дифференциальных уравнений с малым параметром //УМН, 1957, т.12, вып. 5(77), с.3-122

[2] Вишик М.И. Люстерник Л.А. Решение некоторых задач о возмущении в случае матриц и самосопряженных и несамосопряженных дифференциальных уравнений // УМН, 1960, т. 15. вып.3 (93), с.3-80

Mo Jiaqi və başqa müəlliflərin sinqulyar həyacanlaşmış qeyri-xətti sərhəd məsələlərinə həsr olunmuş bir sıra işləri vardır. Lakin tədqiq olunmuş bu sərhəd məsələlərinin çoxunda kiçik parametrin sıfır qiymətində ($\varepsilon=0$ olduqda) verilən tənlik ya funksional tənliyə, ya da ki, adi diferensial tənliyə cırlaşır. [3] [3] işində birinci tərtib xüsusi törəməli tənliyə cırlaşan ikinci tərtib hiperbolik tənlik üçün Koşi məsələsinə baxılmışdır. [4] [4]-də parabolik tənliyə cırlaşan hiperbolik tənlik üçün sinqulyar həyəcanlanmış sərhəd məsələsinə baxılmışdır. Bu işlərin hər ikisində yalnız axtarılan funksiya özü verilən tənliklərə qeyri-xətti daxildir.

Bu dissertasiya işində baxılan tənliklərdən biri müstəsna olmaqla, qalanlarının hamısı xüsusi törəməli diferensial tənliklərə cırlaşırlar. Qeyd etmək lazımdır ki, bütün tədqiq olunan tənliklərdə axtarılan funksiyanın müəyyən törəmələri qeyri-xətti şəkildə iştirak edirlər.

Elliptik və birxarakteristikalı tənliklərin bir-birlərinə qarşılıqlı cırlaşmaları M.İ.Vişik və L.A.Lyüsternik tərəfindən öyrənilmişdir. Elliptik tənliklərin parabolik tənliklərə cırlaşmasını M.H. Cavadov və onun tələbələri tədqiq etmişlər. Bu nəticələr xətti tənliklərə aiddirlər. Lakin cırlaşanda tiplərini dəyişən sinqulyar həyəcanlanmış qeyri-xətti diferensial tənliklər çox az öyrənilmişlər. Bu dissertasiyada tədqiq olunan bütün tənliklər qeyri-xəttidirlər və cırlaşdıqda tiplərini dəyişirlər.

İndiyə kimi tədqiq olunmuş məsələlərin əksəriyyətində cırlaşmış məsələnin həlli hamar olur. [5] [5] işində cırlaşmış məsələsi məxsusiyyətlərə malik olan xətti parabolik tənlik üçün olan sərhəd məsələsinin təqribi həlli qurulmuşdur. Bu dissertasiyada 1.1, 1.2, 1.3, 1.8, 2.1, 2.2, 2.3, 4.1, 4.2 yarımfəsillərində hamar olmayan cırlaşma baş verir.

Bizə məlum tədqiq olunmuş sinqulyar həyəcanlaşmış qeyri-xətti sərhəd məsələlərinin demək olar ki, hamısına məhdud oblastlarda baxılmışdır. Burada 1.3, 1.4, 1.6, 1.7, 2.2, 2.3, 3.2, 3.3-də qeyri-məhdud

[3] Bianchini Stefano. Hiperbolic limit of the Jin-xin relaxation model // commun. Fure and Appl. Math., 2006, v.59, №5, pp. 688-753.
[4] Cheng Yan. Asymptotic solution of a boundary problem for the semilinear singularly perturbed elliptical equation // Shuxue zaz hi = J.Math., 2005, №1, pp. 25-29.
[5] Булычева О.Н., Сушко В.Г. Построение приближенного решения для одной сингулярно возмушенной параболической задачи с негладким вырождением // Фундаментальная и прикладная математика, 1995, т.1, вып.4, с. 881-905

oblastlarda qoyulmuş qeyri-xətti sərhəd məsələlərinin həllərinin tam asimptotikaları qurulmuşdur.

Aydındır ki, baxılan oblast düyün nöqtələrinə və kəsişən mütəhərrik sərhədlərə malik olduqda bu oblastda baxılan sərhəd məsələsinin həllinin tam asimptotikasını qurmaq çətinləşir. Qeyd edək ki, mütəhərrik sərhəd dedikdə sərhəddin elə hissəsi nəzərdə tutulur ki, onun yaxınlığında sərhəd zolaq tipli funksiya qurulur. 1.1, 1.2, 1.5, 2.1, 3.1, 4.1, 4.2-də sərhəd məsələlərinə elə oblastlarda baxılmışdır ki, bu oblastlar dörd düyün nöqtələrinə və iki və ya üç sayda kəsişən mütəhərrik sərhədlərə malikdirlər.

Əgər cırlaşmış məsələnin həlli oblastın sərhəddinin bir hissəsində baxılan məsələnin tələb etdiyi sərhəd şərtlərinin hamısını ödəmirsə, onda sərhəddin həmin hissəsində itən sərhəd şərtlərinin ödənilməsini təmin etmək üçün sərhəd zolaq tipli funksiyaları ənənəvi üsullarla qurmaq mümkün olmur. 2.3, 3.1, 3.2, 3.3, 4.2-də elə sərhəd məsələləri tədqiq olunmuşdur ki, baxılan sərhəd məsələlərinin həllərinin asimptotikalarını ənənəvi üsullarla qurmaq mümkün deyil.

Bizə məlum olan və sinqulyar həyəcanlaşmış qeyri-xətti sərhəd məsələlərinin tədqiqinə həsr olunmuş bütün işlər üç klassik tiplərdən müəyyən birinə aiddir. Klassik tiplərdə olmayan qeyri-xətti diferensial tənliklər üçün olan sərhəd məsələlərinin həllərinin asimptotikalarının qurulması sinqulyar həyəcanlanmalar nəzəriyyəsinin aktual problemlərindən biridir. Dördüncü fəsildə iki müxtəlif qeyri-xətti, klassik tiplərdə olmayan diferensial tənliklər üçün sərhəd məsələləri tədqiq olunmuşlar.

İşin məqsədi. Əsas məqsəd aşağıdakılardır:

I. Müəyyən sərhəd məsələlərinin asimptotik ayrılışlarının qurulması üçün spesifik yanaşma üsullarının işlənməsi. Bu tipdə sərhəd məsələlərinə aşağıdakılar aiddirlər:

- Cırlaşanda tipini dəyişən qeyri-xətti tənliklər üçün sərhəd məsələləri;
- Düyün nöqtələrinə və iki və ya üç kəsişən mütəhərrik sərhədlərə malik olan oblastlarda baxılan sərhəd məsələləri;
- Qeyri-məhdud oblastlarda baxılan sərhəd məsələləri;
- Hamar cırlaşmayan sərhəd məsələləri;
- Cırlaşanda məxsusiyyətə malik olan sərhəd məsələləri;
- Həllərinin asimptotikalarını ənənəvi üsulla qurmaq mümkün olmayan sərhəd məsələləri;

● Klassik tiplərdə olmayan qeyri-xətti diferensial tənliklər üçün olan bəzi sərhəd məsələləri.

II.Bu yanaşma üsullarının köməyi ilə klassik tiplərin hər üçünə aid və klassik tiplərdə olmayan qeyri-xətti diferensial tənliklər üçün qoyulmuş bəzi sərhəd məsələlərinin həllərinin tam asimptotikalarını qurmaq və bu zaman alınan qalıq hədlərini qiymətləndirmək.

Tədqiqat metodları. İşdə sərhəd məsələlərinin həllərinin asimptotik ayrılışlarının sərhəd zolaq tipli funksiyalar ilə qurulmasının modernləşdirilmiş Vişik-Lyüsternik metodundan, Furyenin dəyişənlərinə ayırma üsulundan və inteqral çevirmələr metodlarından istifadə olunmuşdur.

Elmi yeniliklər. Dissertasiya işində aşağıdakı əsas nəticələr alınmışdır:

● Cırlaşdıqda tipini dəyişən, klassik tiplərin hər üçünə aid tənliklər üçün qoyulmuş bəzi sərhəd məsələlərinin həllərinin tam asimptotikaları qurulmuşdur.

● Üçüncü tərtib və ixtiyari tək tərtibli klassik tiplərdə olmayan iki müxtəlif qeyri-xətti tənliklər üçün qoyulmuş sərhəd məsələlərinin həllərinin tam asimptotikaları qurulmuşdur.

● Hamar cırlaşmayan və ya cırlaşdıqda məxsusiyyətlərə malik olan bəzi sinqulyar həyəcanlanmış sərhəd məsələləri tədqiq olunmuşlar.

● Klassik tiplərin hər üçünə aid olan tənliklər üçün qeyri-məhdud oblastlarda qoyulmuş bəzi sərhəd məsələlərinin həllərinin tam asimptotikaları qurulmuşlar.

● İlk dəfə olaraq «Sərhəd şərtinin kiçik parametrin istənilən müsbət üstlü dərəcəsinə nəzərən dəqiqliklə təqribi ödənilməsi» anlayışı verilmiş və bu anlayışın köməyi ilə bəzi sərhəd məsələlərinin həllərinin asimptotikaları qeyri-ənənəvi üsulla qurulmuşdur.

İşin nəzəri və praktiki əhəmiyyəti. Dissertasiya nəzəri xarakter daşıyır. Dissertasiyada alınmış nəticələr yüksək tərtibli törəmələrinin qarşısında kiçik parametr olan xüsusi törəməli qeyri-xətti tənliklər nəzəriyyəsində böyük nəzəri əhəmiyyətə malikdirlər və bir çox praktiki məsələlərdə effektiv olaraq tətbiq olunurlar. Belə məsələlərə misal olaraq nazik, mütəhərrik lövhə və təbəqələrin qeyri-xətti nəzəriyyə məsələlərini, mayelərin səthi gərilmə qüvvəsinin təsiri altındakı hərəkətini göstərmək olar. Mühüm tətbiqlər arasında özündə özülülü maye saxlayan laylı bərk cisimlər dinamikasının məsələlərini də qeyd etmək lazımdır. Bu məsələlər raket və kosmik texnikanın inkişafı ilə əlaqədar olaraq xüsusi aktuallıq kəsb edirlər.

İşin aprobasiyası. Dissertasiyanın əsas nəticələri ADNA-nın «Ali riyaziyyat» kafedrasının elmi seminarında, AMEA RMİ-nin "Riyazi fizika tənlikləri" və "Diferensial tənliklər" şöbələrinin birgə elmi seminarında, «Kiçik parametr və onun tətbiqləri» ümumittifaq məktəb – seminarında (Minsk, 1982), AMEA-nın müxbir üzvü, prof. A.Ə.Babayevin 70-illiyinə həsr olunmuş elmi konfransda (Bakı, 2004), AMEA-nın müxbir üzvü, prof. İ.T.Məmmədovun 50-illiyinə həsr olunmuş beynəlxalq konfransda (Bakı, 2005), AMEA-nın müxbir üzvü, prof. B.A.İskəndərovun 70-illiyinə həsr olunmuş beynəlxalq konfransda (Bakı, 2006), akademik Ə.İ. Hüseynovun 100-illiyinə həsr olunmuş elmi konfransda (Bakı, 2007), «Pontryaqin oxunması-XIX» Voronej yaz riyazi məktəbində (Voronej, 2008), AMEA-nın Riyaziyyat və Mexanika institunun 50-illiyinə həsr olunmuş beynəlxalq konfransda (Bakı, 2009), akademik F.Q.Maqsudovun 80-illiyinə həsr olunmuş beynəlxalq konfransda (Bakı, 2010), akademik Z.İ.Xalilovun 100-illik yubileyinə həsr olunmuş beynəlxalq konfransda (Bakı, 2011), akademik İ.İ.İbrahimovun 100-illik yubileyinə həsr olunmuş beynəlxalq konfransda (Bakı, 2012) məruzə edilmişlər.

Nəşrlər. Dissertasiyanın əsas nəticələri 33 elmi işdə çap olunmuşdur. Bu işlərin siyahısı avtoreferatın sonunda verilmişdir.

İşin strukturu və həcmi. Dissertasiya girişdən, dörd fəsildən, nəticə və 141 adda olan ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin həcmi 274 səhifədir.

DİSSERTASİYANIN MƏZMUNU

Giriş, dörd fəsil, nəticə və ədəbiyyat sıyahısından ibarət olan dissertasiyanın qısa məzmunun şərt edək.

Girişdə dissertasiya mövzusu ilə bağlı olan işlərin qısa xülasəsi və dissertasiyada alınan əsas nəticələr verilmişdir.

Birinci fəsildə sinqulyar həyəcanlaşmış kvazixətti elliptik tənliklər üçün məhdud və qeyri-məhdud oblastlarda sərhəd məsələləri tədqiq olunmuşdur. İlk dörd yarımfəsildə hiperbolik tənliyə cırlaşan kvazixətti elliptik tənlik üçün düzbucaqlıda, əyrixətli trapesiyada, sonsuz yarımzolaqda və sonsuz zolaqda sərhəd məsələlərinə baxılmışdır. Sonrakı üc yarımfəsildə (1.5, 1.6, 1.7) parabolik tənliyə cırlaşan kvazixətti elliptik tənliuk üçün düzbucaqlıda, sonsuz yarımzolaq və sonsuz zolaqda sərhəd məsələlərinə baxılmışdır. Sonuncu 1.8 yarımfəslində adi diferensial tənliyə cırlaşan kvazixətti elliptik tənlik üçün n-ölçülü oblastda elə sərhəd məsələsi tədqiq olunmuşdur ki, onun cırlaşmış məsələsi məxsusiyyətə malikdir.

1.1-də $D=\{(x,y)|\,0\le x\le 1,\ 0\le y\le 1\}$ oblastında aşağıdakı sərhəd məsələsinə baxılır:

$$L_\varepsilon u\equiv -\varepsilon^p\left[\frac{\partial}{\partial x}\left(\frac{\partial u}{\partial x}\right)^p+\frac{\partial}{\partial y}\left(\frac{\partial u}{\partial y}\right)^p\right]-\varepsilon\Delta u+\frac{\partial u}{\partial x}+\frac{\partial u}{\partial y}+F(x,y,u)=0, \quad (1)$$

$$u\big|_{x=0}=u\big|_{x=1}=0;\ \ (0\le y\le 1),\qquad u\big|_{y=0}=u\big|_{y=1}=0;\ \ (0\le x\le 1). \quad (2)$$

Burada və bundan sonra hər yerdə $\varepsilon>0$ -kiçik parametr, $p=2k+1$, k -ixtiyari natural ədəd, $F(x,y,u)$-verilmiş və aşağıdakı şərti ödəyən funksiyadır:

$$\frac{\partial F(x,y,u)}{\partial u}\ge\gamma^2>0; \quad (3)$$

$$(x,y,u)\in\left(D\setminus\{(x,y)\in D|\ x=y\}\right)\times(-\infty,+\infty).$$

Bizim burada və sonrakı fəsillərin hər birində məqsədimiz baxılan sərhəd məsələlərinin həllərinin kiçik parametrə nəzərən tam asimptotikalarını qurmaqdır.

(1), (2) məsələsinin həllinin asimptotikası müvafiq iterasiya proseslərinin koməyi ilə aşağıdakı kimi alınmışdır:

$$u = \sum_{i=0}^{n} \varepsilon^i W_i + \sum_{j=0}^{n+1} \varepsilon^j V_j + \sum_{j=0}^{n+1} \varepsilon^j \eta_j + z. \qquad (4)$$

Burada W_0

$$L_0 W_0 \equiv \frac{\partial W_0}{\partial x} + \frac{\partial W_0}{\partial y} + F(x, y, W_0) = 0; \; W_0\big|_{x=0} = 0, \; W_0\big|_{y=0} = 0 \qquad (5)$$

məsələsinin həllidir. Bu məsələyə (1), (2) məsələsinə uyğun cırlaşmış məsələ deyilir. (5) məsələsinin həlli D-də $x = y$ olduqda məxsusiyyətə malikdir.

(5) məsələsinin həllinin hamarlığını təmin edən və W_i; $i = 1,2,...,n$ funksiyalarının qurulmasına xidmət edən birinci iterasiya prosesini aparmağa imkan verən teorem isbat edilir. W_i; $i = 1,2,...,n$ funksiyaları bir-birləri ilə rekurrent əlaqədə olan xətti sərhəd məsələlərindən təyin edilirlər.

$x = 1$ sərhəddi yaxınlığında sərhəd zolaq tipli funksiya olan V_0 funksiyası aşağıdakı sərhəd məsələsindən təyin olunur:

$$\frac{\partial}{\partial \tau}\left(\frac{\partial V_0}{\partial \tau}\right)^p + \frac{\partial^2 V_0}{\partial \tau^2} + \frac{\partial V_0}{\partial \tau} = 0; \quad V_0\big|_{\tau=0} = -W_0(1, y), \quad \lim_{\tau \to +\infty} V_0 = 0, \; (6)$$

burada $\tau = \dfrac{1-x}{\varepsilon}$. (6) məsələsinin həllinin varlığı və yecanəliyini, eləcə də

$$\left|\frac{\partial^i V_0(\tau, y)}{\partial \tau^{i_1} \partial y^{i_2}}\right| \le G_{i_1 i_2}\left(\left|\varphi_0(y)\right|, \left|\varphi_0'(y)\right|, ..., \left|\varphi_0^{(i_2)}(y)\right|\right) \exp(-\tau) \qquad (7)$$

qiymətləndirilməsinin doğruluğunu təsdiq edən teorem isbat olunur. Burada $\varphi_0(y) = -W_0(1, y)$, $G_{i_1 i_2}(t_1, t_2, ..., t_{i_2+1})$ -isə öz arqumentlərinin mənfi olmayan əmsallı elə polinomudur ki, bu polinomun sərbəst həddi sıfırdır, qalan əmsallarından isə heç olmazsa biri sıfırdan fərqlidir.

$x = 1$ sərhəddi yıxınlığındakı sərhəd zolaq tipli qalan V_j; $j = 1,2,...,n+1$ funksiyaları isə xətti sərhəd məsələlərindən təyin olunurlar.

$y = 1$ sərhəddi yıxınlığındakı sərhəd zolaq η_j funksiyaları V_j; $j = 0,1,...,n+1$ funksiyalarının qurulmasına oxşar şəkildə qurulurlar.

Asimptotikanı qurarkən düyün nöqtələrinin mövcudluğu ilə bağlı qarşıya çıxan çətinliklər $F(x, y, u)$ funksiyası üzərinə $y = x$ olduqda və $(1;0)$, $(0;1)$ düyün nöqtələrində qoyulan əlavə şərtlər hesabına həll olunurlar.

Alınan nəticələr aşağıdakı təklif şəklində ifadə olunmuşdur.

Teorem 1. Fərz edək ki, $F(x, y, u) \in C^{2n+2}\left(D \times (-\infty, +\infty)\right)$ və (3) şərti ödənilir. Əgər $F(x, y, u)$ funksiyası törəmələri ilə birlikdə $y = x$ olduqda və $(1;0)$, $(0;1)$ düyün nöqtələrində sıfra çevrilirsə, onda (1), (2) məsələsinin ümumiləşmiş həlli üçün (4) asimptotik ayrılışı doğrudur. Burada W_i, V_j, η_j funksiyaları müvafiq iterasiya prosesləri ilə təyin olunurlar, z - qalıq həddir və onun üçün

$$\varepsilon^p \iint_D \left[\left(\frac{\partial z}{\partial x}\right)^{p+1} + \left(\frac{\partial z}{\partial y}\right)^{p+1}\right] dx\, dy + \varepsilon \iint_D \left[\left(\frac{\partial z}{\partial x}\right)^2 + \left(\frac{\partial z}{\partial y}\right)^2\right] dx\, dy + \\ + c_1 \iint_D z^2 dx\, dy \le c_2 \varepsilon^{2n+2} \tag{8}$$

qiymətləndirməsi doğrudur. Buradakı $c_1 > 0$, $c_2 > 0$ -sabitləri ε -dan asılı deyillər.

1.2-də (1) tənliyi üçün $\Omega = \{(x, y) | \varphi_1(y) \le x \le \varphi_2(y), \quad a \le y \le b\}$ əyrixətli trapesiyasında sərhəd məsələsinə baxılmışdır. Bununla əlaqədar olaraq burada (1) tənliyi üçün sərhəd şərtləri aşağıdakı kimi verilmişdir:

$$u\big|_{x=\varphi_1(y)} = u\big|_{x=\varphi_2(y)} = 0, \; (a \le y \le b); \\ u\big|_{y=a} = 0, \; (\varphi_1(a) \le x \le \varphi_2(a)); \; u\big|_{y=b} = 0, \; (\varphi_1(b) \le x \le \varphi_2(b)). \tag{9}$$

(1), (9) məsələsinin həllinin də asimptotikası (4) şəklindədir. Lakin burada W_i, V_j, η_j funksiyaları başqa sərhəd məsələlərindən təyin olunurlar.

Burada qurulmuş $W = \sum_{i=0}^{n} \varepsilon^i W_i$ cəmi $W\big|_{x=\varphi_1(y)} = 0$, $W\big|_{y=a} = 0$ şərtlərini ödəyir, lakin bu cəm ümumiyyətlə desək, $x = \varphi_2(y)$ və $y = b$ üzərindəki (9) bircins sərhəd şərtlərini ödəməyə bilər. Sərhəd şərtlərinin ödənilməsindəki bu çatışmamazlıqları aradan qaldırmaq üçün $x = \varphi_2(y)$ və $y = b$ sərhədləri yaxınlığında sərhəd zolaq tipli V_j və

η_j; $j = 0,1,...,n+1$ funksiyaları qurulmuşdur.

(4) ayrılışındakı z qalıq həddi üçün qiymətləndirmə burada da (8) şəklindədir, lakin bu qiymətləndirmənin isbatı 1.1-dəki isbatdan əhəmiyyətli dərəcədə fərqlənir.

1.2-nin nəticələri aşağıdakı təklif şəklində ümumiləşdirilmişdir.

Teorem 2. Fərz edək ki, $F(x, y, u) \in C^{2n+2}(\Omega \times (-\infty, +\infty))$, Ω-da (3) şərti ödənilir və $F(x, y, u)$ funksiyası törəmələri ilə birlikdə $y = x$ olduqda, eləcə də $(\varphi_2(a), a)$ və $(\varphi_1(b), b)$ nöqtələrində sıfra çevrilir. Onda (1), (9) məsələsinin həlli üçün (4) asimptotik ayrılışı doğrudur. Burada W_i funksiyaları birinci iterasiya prosesində təyin olunurlar, V_j, η_j funksiyaları $x = \varphi_2(y)$ və $y = b$ yaxınlığında sərhəd zolaq tipli funksiyalardır, z - qalıq həddir və onun üçün Ω-da (8) qiymətləndirməsi doğrudur.

1.3-də $\Pi_+ = \{(x, y) | 0 \le x \le 1,\ 0 \le y < +\infty\}$ sonsuz yarımzolağında

$$-\varepsilon^p \left[\frac{\partial}{\partial x}\left(\frac{\partial u}{\partial x}\right)^p + \frac{\partial}{\partial y}\left(\frac{\partial u}{\partial y}\right)^p \right] - \varepsilon \Delta u + \frac{\partial u}{\partial x} + \frac{\partial u}{\partial y} + au - f(x, y) = 0, \quad (10)$$

$$u\big|_{x=0} = u\big|_{x=1} = 0;\ (0 \le y < +\infty),\ u\big|_{y=0} = 0,\ \lim_{y \to +\infty} u = 0,\ (0 \le x \le 1), \quad (11)$$

sərhəd məsələsinə baxılır. Burada $a > 0$ - sabit, $f(x, y)$ - verilmiş hamar funksiyadır.

(10), (11) məsələsinin həllinin asimptotikasının qurulması 1.1-də olduğu kimi aparılır. y dəyişəni $[0, +\infty)$ yarımoxunda dəyişdiyi üçün burada asimptotik ayrılışda $y = 1$ yaxınlığında sərhəd zolaq tipli funksiyalar olmayacaqdır. Lakin burada ona nail olmaq lazımdır ki, (10), (11) məsələsinin həllinin asimptotik ayrılışının bütün hədləri (11)-dəki sonuncu sərhəd şərtini ödəsinlər.

$f(x, y)$ funksiyasının

$$\left| \frac{\partial^i f(x, y)}{\partial x^{i_1} \partial y^{i_2}} \right| \le c_1 \exp(-\gamma\, y);\ i = i_1 + i_2;\ i = 0,1,...,2n+2; \quad (12)$$

$$(0 \le y < +\infty),\ c_1 > 0,\ \gamma > 0$$

şərtini ödəməsi fərz olunur.

Burada qurulan $W=\sum_{i=0}^{n}\varepsilon^i W_i$ funksiyası $W\big|_{x=0}=0,\ \lim_{y\to+\infty}W=0,$ $W\big|_{y=0}=0,$ sərhəd şərtlərini ödəyir. Lakin W funksiyası ümumiyyətlə desək, $x=1$ üzərindəki (11) sərhəd şərtini ödəməyə bilər. Ona görə W funksiyasına $x=1$ sərhəddi yaxınlığında sərhəd zolaq tipli elə $V=\sum_{j=0}^{n+1}\varepsilon^j V_j$ funksiyası əlavə etmək lazımdır ki, alınan cəm $(W+V)\big|_{x=1}=0$ sərhəd şərtini ödəsin. V_j funksiyalarının qurulması 1.1-də V_j; $0,1,...,n+1$ funksiyalarının qurulmasına oxşar şəkildə aparılır. Burada isbat olunur ki, V_j; $j=0,1,...,n+1$ funksiyaları və onların törəmələri $y\to+\infty$ şərtində eksponensial olaraq azalırlar.

Əvvəlki yarımfəsillərdən fərqli olaraq burada düyün nöqtələrinin mövcudluğu ilə əlaqədar çətinliklər yalnız bir dənə $x=1, y=0$ düyün nöqtəsində qarşıya çıxır.

1.3-də aşağıdakı teorem isbat edilmiş olur.

Teorem 3. Fərz edək ki, $f(x,y)\in C^{2n+2}(\Pi_+)$, (12) şərti ödənilir, $f(x,y)$ funksiyası törəmələri ilə birlikdə $y=x$ olduqda və $x=1, y=0$ düyün nöqtəsində sıfra çevrilir. Onda (10), (11)sərhəd məsələsinin həlli üçün

$$u=\sum_{i=0}^{n}\varepsilon^i W_i+\sum_{j=0}^{n+1}\varepsilon^j V_j+z \tag{13}$$

asimptotik ayrılışı doğrudur. Burada W_i -funksiyaları birinci iterasiya prosesində təyin olunurlar, V_j funksiyaları $x=1$ yaxınlığında sərhəd zolaq tipli funksiyalardır, z –isə qalıq həddidir və onun üçün

$$\varepsilon^p\iint_{\Pi_+}\left[\left(\frac{\partial z}{\partial x}\right)^{p+1}+\left(\frac{\partial z}{\partial y}\right)^{p+1}\right]dx\,dy+\varepsilon\iint_{\Pi_+}\left[\left(\frac{\partial z}{\partial x}\right)^{2}+\left(\frac{\partial z}{\partial y}\right)^{2}\right]dx\,dy+ \\ +c_1\iint_{\Pi_+}z^2\,dx\,dy\le c_2\varepsilon^{2n+2} \tag{14}$$

qiymətləndirməsi doğrudur.

1.4-də $\Pi=\{(x,y)\,|\,0\le x\le 1,\ -\infty<y<+\infty\}$ sonsuz zolağında (10) tənliyi üçün sərhəd məsələsi tədqiq olunmuşdur. Bu halda (11) əvəzinə

$$u\big|_{x=0}=u\big|_{x=1}=0;\ \left(-\infty<y<+\infty\right),\ \lim_{|y|\to+\infty}u=0,\ \left(0\le x\le 1\right) \qquad (15)$$

sərhəd şərtləri götürülmüşdür. Bu yarımfəsildə W_i funksiyaları $x=0$ başlanğıc şərtli Koşi məsələlərindən (yəni $W_i\big|_{x=0}=0;\quad i=0,1,2,...,n$) təyin edilirlər.

1.1, 1.2, 1.3-də birinci iterasiya prosesində alınan məsələlərin həlləri $x=y$ olduqda məxsusiyyətə malik idilər. Bununla əlaqədar olaraq 1.1, 1.2, 1.3-də $F(x,y,u)$ funksiyası üzərinə törəmələri ilə birlikdə $y=x$ xətti üzərində sıfra çevrilmək şərti qoyulmuşdu. Burada biz həmin şərtdən imtina edəcəyik.

Baxılan Π oblastında düyün nöqtələri olmadığı üçün biz burada həmçinin əvvəlki yarımfəsillərdə $F(x,y,u)$ funksiyası üzərinə düyün nöqtələrində qoyulmuş şərtlərdən də imtina edirik.

$f(x,y)$ funksiyasının

$$\sup_y\left(1+|y|^l\right)\left|\frac{\partial^k f(x,y)}{\partial x^{k_1}\partial y^{k_2}}\right|=c^{(1)}_{l_{k_1k_2}}<+\infty \qquad (16)$$

şərtini ödəməsi fərz olunur.

Burada qurulan $W=\sum_{i=0}^{n}\varepsilon^i W_i$ cəmi aşağıdakı şərtləri ödəyir: $W\big|_{x=0}=0,\quad \left(-\infty<y<+\infty\right);\ \lim_{|y|\to+\infty}W=0,\ \left(0\le x\le 1\right).$

$x=1$ üzərindəki itən sərhəd şərtinin ödənilməsini təmin etmək məqsədi ilə $x=1$ sərhəddi yaxınlığında $V=\sum_{j=0}^{n+1}\varepsilon^j V_j$ sərhəd zolaq tipli funksiya qurulur. V_j ; $j=0,1,...,n+1$ funksiyaları 1.3-də olduğu kimi qurulurlar. Burada isbat olunur ki, $V_0(\tau,y)$ funksiyası və $V_j(\tau,y)$; $j=1,2,...,n+1$ funksiyaları hamısı τ -nın $[0,+\infty)$ yarımoxundan olan bütün qiymətlərində sonsuzluqda y -ə nəzərən sürətlə azalan funksiyaların S_y fəzasına daxildirlər. Buradan alınır ki, $W+V$ cəmi $\left(W+V\right)\big|_{x=1}=0$ sərhəd şərtindən əlavə həm də $\lim_{|y|\to\infty}\left(W+V\right)=0$ şərtini ödəyir.

1.4-də alınan nəticələr aşağıdakı təklif şəklində ifadə olunmuşdur.

Teorem 4. Fərz edək ki, $f(x,y)$ funksiyası (16) şərtini ödəyir. Onda (10), (15) məsələsinin həlli üçün (13) asimptotik ayrılışı, z qalıq həddi üçün isə Π -də (14) qiymətləndirilməsi doğrudur.

1.5-də $D=\{(x,y)|0\le x\le b,\ 0\le y\le 1\}$ düzbucaqlısında

$$L_\varepsilon u \equiv -\varepsilon^p\left[\frac{\partial}{\partial x}\left(\frac{\partial u}{\partial x}\right)^p+\frac{\partial}{\partial y}\left(\frac{\partial u}{\partial y}\right)^p\right]-\varepsilon\,\Delta u+$$

$$+\frac{\partial u}{\partial x}-\frac{\partial^2 u}{\partial y^2}+au-f(x,y)=0, \tag{17}$$

$$u|_{x=0}=u|_{x=b}=0,\ \ (0\le y\le 1);\ \ u|_{y=0}=u|_{y=1}=0,\ \ (0\le x\le b) \tag{18}$$

sərhəd məsələsinə baxılır. Burada $a>0$ –sabit, $f(x,y)$–isə verilmiş hamar funksiyadır.

Burada $\varepsilon=0$ olduqda (17) tənliyi parabolik tənliyə cırlaşır.

$f(x,y)$ funksiyasının $C^{n+1,2n+6}(D)$ fəzasına daxil olması və

$$\frac{\partial^{2r} f(x,0)}{\partial y^{2k}}=\frac{\partial^{2r} f(x,1)}{\partial y^{2k}}=0;\quad r=0,1,...,n+2, \tag{19}$$

şərtini ödəməsi fərziyyələri ilə qurulan $W=\sum_{i=0}^{n}\varepsilon^i W_i$ cəmi aşağıdakı sərhəd şərtlərini ödəyir:

$$W|_{x=0}=0,\ \ (0\le y\le 1);\quad W|_{y=0}=W|_{y=1}=0,\ \ (0\le x\le b).$$

Lakin bu funksiya (18)-də olan $x=b$ üzərindəki sərhəd şərtini ödəməyə bilər. Ona görə $x=b$ sərhəddi yaxınlığında sərhəd zolaq tipli elə $V=\sum_{j=0}^{n+1}\varepsilon^j V_j$ funksiyası qurulmuşdur ki, $W+V$ cəmi $(W+V)|_{x=b}=0$ sərhəd şərtini ödəsin.

V_j; $j=0,1,...,n+1$ funksiyalarının qurulması 1.1, 1.3, 1.4-də olduğu kimi aparılır. Lakin burada onun da qayğısına qalmaq lazımdır ki, W funksiyasına V funksiyasını əlavə etdikdə alınan cəm üçün W -nin $y=0$ və $y=1$ olduqda ödədiyi sərhəd şərtləri pozulmasın.

Burada baxılan D oblastının dörd düyün nöqtəsi olmasına baxmayaraq $f(x,y)$ funksiyası üzərinə düyün nöqtələrində heç bir əlavə şərt qoymadan yalnız (19) şərtlərinin ödənilməsi fərziyyəsi ilə (17), (18) sərhəd məsələsinin həllinin tam asimptotikası qurulmuşdur.

1.5-in nəticələri aşağıdakı teorem ilə ifadə olunmuşdur.

Teorem 5. Fərz edək ki, $f(x,y)\in C^{n+1,2n+6}(D)$ və (19) şərtləri ödənilir. Onda (17), (18) sərhəd məsələsinin ümumiləşmiş həlli üçün (13) asimptotik ayrılışı doğrudur. Burada W_i funksiyaları birinci iterasiya prosesində təyin olunurlar, V_j funksiyaları $x=b$ sərhəddi yaxınlığında sərhəd zolaq tipli funksiyalardır, z - isə qalıq həddidir və onun üçün

$$\varepsilon^p \iint_D \left[\left(\frac{\partial z}{\partial x}\right)^{p+1} + \left(\frac{\partial z}{\partial y}\right)^{p+1}\right] dxdy + \varepsilon \iint_D \left[\left(\frac{\partial z}{\partial x}\right)^2 + \left(\frac{\partial z}{\partial y}\right)^2\right] dxdy + \qquad (20)$$

$$+ \iint_D \left(\frac{\partial z}{\partial y}\right)^2 dxdy + c_1 \iint_D z^2 dxdy \le c_2 \varepsilon^{2(n+1)}$$

qiymətləndirməsi doğrudur. Buradakı $c_1 > 0$, $c_2 > 0$ sabitləri ε -dan asılı deyirllər.

1.6-da (17) tənliyi üçün $\Pi_+ = \{(x,y)| 0 \le x \le 1, \ \ 0 \le y < +\infty\}$ yarımzolağında aşağıdakı sərhəd şərtləri olan sərhəd məsələsinə baxılır:

$$u|_{x=0} = u|_{x=1} = 0, \ \ (0 \le y < +\infty), \qquad (21)$$

$$u|_{y=0} = 0, \ \ \lim_{y\to+\infty} u = 0, \ (0 \le x \le 1). \qquad (22)$$

(17), (21), (22) məsələsinin həllinin də asimptotik ayrılışı (13) şəklindədir. İsbat olunmuşdur ki, $f(x,y)$ funksiyası (12) şərtini ödədikdə, $W = \sum_{i=0}^{n} \varepsilon^i W_i$ cəmi

$$W|_{x=0} = 0, \ (0 \le y < +\infty); \ W|_{y=0} = 0, \ \ \lim_{y\to+\infty} W = 0, \quad (0 \le x \le 1)$$

sərhəd şərtlərini ödəyir. Sonra isə $x=1$ sərhəddi yaxınlığında sərhəd zolaq tipli elə $V = \sum_{j=0}^{n+1} \varepsilon^j V_j$ funksiyası qurulur ki, $W+V$ cəmi $(W+V)|_{x=1} = 0$ sərhəd şərtini ödəsin.

V_j; $j = 0,1,\ldots,n+1$ funksiyaları 1.5-də olduğu kimi qurulurlar.

Lakin burada həm də ona nail olmaq lazımdır ki, V_j funksiyaları əlavə olaraq $V_j\big|_{y=0}=0,\ \lim\limits_{y\to+\infty}V_j=0;\, j=0,1,...,n+1$ şərtlərini ödəsinlər. Onda $W+V$ cəmi (21), (22)-dəki bütün sərhəd şərtlərini ödəyəcəkdir.

1.6-nın nəticələrini aşağıdakı təklif şəklində ifadə etmək olar.

Teorem 6. Tutaq ki, $f(x,y)$ funksiyası (12) şərtini ödəyir. Onda (17), (21), (22) sərhəd məsələsinin ümumiləşmiş həlli üçün (13) asimptotik ayrılışı doğrudur. Burada W_i funksiyaları birinci iterasiya prosesində təyin olunurlar, V_j funksiyaları $x=1$ yaxınlığında sərhəd zolaq tipli funksiyalardır, z -isə qalıq həddidir və onun üçün Π_+ -da (20) qiymətləndirməsi doğrudur.

1.7-də $\Pi=\{(x,y)\,|\,0\le x\le 1,\ -\infty<y<+\infty\}$ sonsuz zolağında (17) tənliyi üçün sərhəd məsələsinə baxılır. Burada (21) sərhəd şərtləri öz yerlərində qalırlar, (22) əvəzinə isə aşağıdakı sərhəd şərtləri götürülür:

$$\lim_{|y|\to+\infty}u=0,\quad (0\le x\le 1). \tag{23}$$

Burada standart prosedurlardan əlavə (23) şərtinin ödənilməsinə nail olmaq lazımdır. (23) şərtinin ödənilməsi üçün isə (13) ayrışına daxil olan bütün hədlər $|y|\to+\infty$ şərtində sıfra çevrilməlidirlər. $W_1,W_2,...,W_n;\ V_0,V_1,..V_{n+1}$ funksiyalarının $|y|\to+\infty$ şərtində sıfra çevrilmələri $W_0(x,y)$ funksiyasının y -ə nəzərən $|y|\to+\infty$ şərtində azalması hesabına, $W_0(x,y)$ funksiyasının y -ə nəzərən azalması isə $f(x,y)$ funksiyası üzərinə qoyulan şərt hesabına təmin edilmişdir. (16) şərtinin ödənilməsi daxilində elə $W=\sum\limits_{i=0}^{n}\varepsilon^i W_i$ cəmi qurulmuşdur ki,

$$W\big|_{x=0}=0,\ (-\infty<y<+\infty);\ \lim_{|y|\to+\infty}W=0,\quad (0\le x\le 1) \tag{24}$$

sərhəd şərtləri ödənilir.

1.6-da olduğu kimi burada da $V=\sum\limits_{j=0}^{n+1}\varepsilon^j V_j$ funksiyasının qurulması ona xidmət edir ki, $W+V$ cəmi $(W+V)\big|_{x=1}=0$ şərtini ödəsin. Bu zaman həm də $W+V$ cəmi üçün

$$\left.(W+V)\right|_{x=0}=0, \qquad \lim_{|y|\to+\infty}(W+V)=0 \tag{25}$$

şərtlərinin ödənilməsi qayğısına qalmaq lazımdır. (25)-dəki birinci şərtin ödənilməsi (24)-dən və hamarlayıcı funksiyalar hesabına bütün V_j; $j=0,1,...,n$ funksiyalarının $x=0$ olduqda sıfra çevrilmələrindən alınır. (25)-dəki ikinci şərtin ödənilməsi üçün isə V_j funksiyalarının

$$\lim_{|y|\to+\infty} V_j=0; \ j=0,1,...,n+1 \tag{26}$$

şərtlərini ödəmələri kafidir.

Məlumdur ki, $\varphi_0(y)=-W_0(1,y)$ funksiyası $|y|\to+\infty$ şərtində sürətlə azalan funksiyalarının S_y fəzasına daxildir. Ona görə (7) qiymətləndirməsindən alınır ki, $\lim\limits_{|y|\to+\infty} V_0=0$, yəni (26) şərti $j=0$ üçün ödənilir. $j=1,2,...,n+1$ olduqda (26)-dəki qalan şərtlərin ödənilməsi isə $-W_j(1,y)=\varphi_j(y)\in S_y; j=1,2,...,n.$ olmasından alınır.

1.7-də alınan nəticələri aşağıdakı təklif şəklində ifadə etmək olar.

Teorem 7. Tutaq ki, $f(x,y)$ funksiyası (16) şərtini ödəyir. Onda (17), (21), (23) sərhəd məsələsinin ümumiləşmiş həlli üçün (13) asimptotik ayrılışı doğrudur. Burada W_i-funksiyaları birinci iterasiya prosesində təyin olunurlar, V_j funksiyaları $x=1$ sərhəddi yaxınlığında sərhəd zolaq tipli funksiyalardır, z-isə qalıq həddir və onun üçün 1.6 yarımfəslində alınmış qiymətləndirmə Π-də doğrudur.

1.8-də kifayət qədər hamar Γ sərhəddinə malik olan $\Omega\subset R^n$ oblastında

$$-\varepsilon^p\sum_{i=1}^n\frac{\partial}{\partial x_i}\left(\frac{\partial u}{\partial x_i}\right)^p-\varepsilon\sum_{i=1}^n\frac{\partial^2 u}{\partial x_i^2}-\frac{\partial u}{\partial x_1}+F(x,u)=0, \quad \left.u\right|_\Gamma=0 \tag{27}$$

sərhəd məsələsinə baxılır. Burada $p=2k+1$, $x=(x_1, x_2, ...,x_n)$, $F(x,u)$ isə verilmiş hamar funksiyadır.

Fərz edək ki, Γ şərhəddi elə şəkildədir ki, OX_1 oxuna paralel olub, Ω ilə ortaq nöqtəsi olan hər bir düz xətt Γ sərhəddini ən çoxu iki nöqtədə kəsir.

Yuxarıda qeyd olunduğu kimi, baxılan oblastın sərhəddi kifayət qədər hamardır, cırlaşmış tənlik isə adi diferensial tənlikdir. Ona görə də ilk baxışda elə görünə bilər ki, (27) sərhəd məsələsinin həllinin asimptotikasının qurulması çox asan başa gələr. Lakin birinci iterasiya prosesini aparan zaman məlum olur ki, cırlaşmış məsələ məxsusiyyətə malikdir. Bu məxsusiyyət birinci iterasiya prosesini aparmağa, nəticədə isə tam asimptotikanı qurmağa imkan vermir.

(27) məsələsinə uyğun cırlaşmış məsələ

$$-\frac{dW_0}{dx_1}+F\left(x,W_0\right)=0;\quad W_0\big|_{\Gamma_2}=0 \qquad (28)$$

şəklindədir. Burada Γ_2 ilə Γ sərhəddinin $\cos(\nu,x_1)<0$ şərtini ödəyən hissəsi, ν -ilə Γ-nın daxili normalı işarə olunmuşdur. $W_0\left(x_1,x_2,...,x_n\right)$ fnksiyasının $x_2,x_3,...,x_n$ dəyişənlərinə nəzərən törəmələri, (28)-dəki tənliyin $x_i=c_i;\ i=2,3,...,n$ xarakteristikalarının Γ sərhəddi ilə toxunma nöqtələrində məxsusiyyətə malikdirlər.

